*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 304-308* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.304*

# Məhəmməd Əmin Rəsulzadə irsində milli mədəniyyətin təbliği

**Fərqanə Hüseynova**
Kulturologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Memarlıq və İncəsənət İnstitutu
E-mail: farqana.huseynova68@gmail.com

**Annotasiya.** Bir millətin milli mədəniyyəti onun milli tarixindən qopub gələn uluların mirası, dil və sənət zənginliyinin, adət-ənənələrinin yaratdığı ortaq dəyərlər toplusudur. Əsrlər boyu varlığımızı, milli kimliyimizi təyin edən mədəniyyətimizi bəşəriyyətin mədəni dəyərləri içərisində yalnız mühafizə və öyrənməyə deyil, həm də təbliğ etməyə çalışmalıyıq. M.Ə.Rəsulzadə mədəniyyətimizin keçmişini, mədəniyyət xəzinəmizi layiqincə mənimsəmiş və təbliğ etmiş şəxsiyyətlərdən biri idi. O, Azərbaycanın istiqlalı uğrunda bütün həyatını, ailəsini, səhhətini fəda etmişdir. Rəsulzadə yalnız azərbaycanlılar üçün deyil, bütün türk dünyası üçün dəyərli bir şəxsiyyət idi.
Məqalədə milli birliyi mədəniyyətlə bağlayan Rəsulzadənin milli istiqlal mübarizəsi, xalqın maariflənməsində xidmətləri işıqlandırılmışdır. Xalqın nicat yolunun yalnız elmdə, tərəqqidə olduğunu göstərən Rəsulzadənin əsərlərindən sitatlar gətirilmişdir. Məqalədə həmçinin Rəsulzadənin istiqlal mübarizəsində həm nəzəri, həm də praktiki fəaliyyəti, eyni zamanda onun bir ədəbiyyatşünas kimi fəaliyyətindən bəhs olunur. Rəsulzadənin mühacirətdə olduğu illərdə Azərbaycanın müstəqilliyi uğrunda apardığı mübarizədən söhbət açılır.
**Açar sözlər:** Məhəmməd Əmin Rəsulzadə, milli istiqlal mübarizəsi, milli mədəniyyət, Azərbaycan xalqı, mədəni-maarif

**Məqalə tarixçəsi:** göndərilib – 05.11.2024; qəbul edilib – 15.11.2024

# Propaganda of national culture in the legacy of Muhammad Amin Rasulzade

**Fargana Huseynova**
Doctor of Philosophy in Culturology, Associate Professor
Institute of Architecture and Art of ANAS
E-mail: farqana.huseynova68@gmail.com

**Abstract.** The national culture of a nation is a set of common values generated by the heritage of great people, the richness of language and art, and traditions originating from its national history. We must strive not only to preserve and study, but also to propagate our culture within the framework of the cultural values of humanity, which for centuries have determined our existence, our national identity. M.A. Rasulzade was one of those individuals who worthily adopted and promoted the past of our culture, our cultural treasury. He devoted his entire life, family, and health for the independence of Azerbaijan. Rasulzade was a valuable personality not only for Azerbaijanis, but also for the entire Turkic world.
The article highlights Rasulzade's struggle for national independence, who linked national unity with culture, and his services in educating the people. Quotes are given from the works of Rasulzadeh, which show that the path to the salvation of the people lies only in science and progress. The article also talks about Rasulzade's theoretical and practical activities in the struggle for independence, as well as his activities as a literary critic. It tells about Rasulzade's struggle for the independence of Azerbaijan during his exile.
**Keywords:** Muhammad Amin Rasulzade, national struggle for independence, national culture, Azerbaijani people, cultural and educational activities

**Article history:** received – 05.11.2024; accepted − 15.11.2024

## Giriş / *Introduction*

Milləti birləşdirən ünsürlər içərisində mədəniyyət birliyi və bütünlüyü ən önəmli yer tutur. Çünki bir millətin milli mədəniyyəti onun milli tarixindən qopub gələn ululların mirasının, dil və sənət zənginliyinin, adət-ənənələrinin yaratdığı ortaq dəyərlər toplusudur. Bir millətin var ola bilməsi, dünya millətlərinə varlığını qəbul etdirə bilməsi üçün həmin millət mədəni dəyərlərini elmi şəkildə tanıtmaq, yaradıcı şəkildə inkişaf etdirmək məcburiyyətindədir. Əsrlər boyu varlığımızı, milli kimliyimizi təyin edən mədəniyyətimizi bəşəriyyətin mədəni dəyərləri içərisində yalnız mühafizə və öyrənməyə deyil, həm də bizi idarə edən ruhi-mənəvi ehtiyaclar halına gətirməyə çalışmalıyıq. Babalarımızın bizə əmanət qoyduğu milli mədəniyyət gələcək nəsillərə daha da zənginləşdirilmiş formada ötürülməlidir.

## Əsas hissə / *Main Part*

M.Ə.Rəsulzadə və onun silahdaşları (M.B.Məhəmmədzadə, Əhməd bəy Ağaoğlu, Əlibəy Hüseynzadə, Ə.Topçubaşov və başqaları), milli istiqlal mücahidləri mədəniyyətimizin keçmişini, mədəniyyət xəzinəmizi layiqincə mənimsəmiş və təbliğ etmiş nəslin nümayəndələri olmuşlar. Məhəmməd Əmin Rəsulzadə yalnız azərbaycanlılar üçün deyil, bütün türk dünyası üçün dəyərli bir şəxsiyyət idi. Rəsulzadə inandığı mübarizə uğrunda hər şeyini, ailəsini, səhhətini, həyatını fəda etmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin təməl daşını qoyan M.Ə.Rəsulzadə 1918-ci il mayın 28-də bütün ölkələrin radio stansiyaları və qəzetləri vasitəsilə Azərbaycanın istiqlaliyyətini dünyaya bəyan etdi. O, əsrin böyük şüarını – “Hər millət öz müqəddəratını özü həll etməyə səlahiyyatdardır” – səsləndirərək Azərbaycan istiqlalını elan etdi. 28 May 1918-ci ildə istiqlalını elan etməklə Azərbaycan tarixinin təbii bir nəticəsini fikirdən işə keçirdi. İstiqlal elanı üzərinə qurulan milli Azərbaycan hökuməti az zamanda məmləkətdə çox böyük işlər gördü. Azərbaycan Cümhuriyyətinin əsas məqsədi Türk dünyası birliyində modern Azərbaycan yarada biləcək ziyalı bir nəsil yetişdirməkdən ibarət idi. Millətinə bağlı olan bu nəsil həm də Avropa tərəqqisini mənimsəmiş, hərtərəfli hazırlıq görmüş azad düşüncəli, azad vicdanlı ziyalı bir ordu təşkil etməyi qarşısına vəzifə olaraq qoymuşdu.

Milli diriliyi mədəniyyətə bağlayan Məhəmməd Əmin Rəsulzadə yazırdı: “Məncə, mədəniyyəti-bəşəriyyə millətlərin zəhmətlərindən hasil olan bir yekundur. Hər millət öz iqtidar və öz istiqlalı sayəsində, yəni öz diriliyi ilə özünə xüsusi, xüsusi olduğu qədər də qiymətli bəzi şeylər əlavə edir ki, bir millətin ölməsi və yaxud ölgün fikirlərlə yaşaması yalnız özünün bədbəxtliyini deyil, bəşəriyyətin də böyük bir nöqsanını təşkil edir” [4, s.16].

Tarixçi alim Nəsiman Yaqublunun tədqiqatlarında Rəsulzadənin milli istiqlal mübarizəsi belə dəyərləndirilir: “M.Ə.Rəsulzadənin fəaliyyətində daha çox xalqın elmlənməsinə, maariflənməsinə böyük əhəmiyyət verilirdi. Cəhalət qaranlığında əzab çəkən xalqın nicat yolunun yalnız elmdə, tərəqqidə, hürriyyətin təntənəsində olduğunu göstərən M.Ə.Rəsulzadənin fikrincə, beş formada hüriyyət vardır: birincisi – söz azadlığı; ikincisi – mətbuat azadlığı; üçüncüsü – cəmiyyət və ittifaq azadlığı; dördüncüsü – vicdan azadlığı; beşincisi – malın və canın mühafizə olunması azadlığı” [7, s.24].

M.Ə.Rəsulzadənin baxışlarına görə, nə millət keyfiyyətinə layiq bir cəmiyyət olmadan milli mədəniyyət, nə də bundan məhrum olan millət var ola bilər. Millət olma keyfiyyəti baxımından bir cəmiyyət, ilk növbədə, milli-mədəni birliyin məhsuludur. Bunun üçün, hər şeydən öncə, dövlət, hökumət səviyyəsində “milli mədəniyyət” zərurətinin dərk edilməsi lazımdır. M.Ə.Rəsulzadənin fikrincə: “milli dövlət mədəniyyət yaradıcılığının ən yüksək şəklidir”, “millətsiz dövlət olmadığı kimi, dövlətsiz millət də hələ millət deyil, toplumdur”. M.Ə.Rəsulzadə üçün milli dövlətin başlıca ölçüsü və meyarı milli mədəniyyətdir. M.Ə.Rəsulzadənin istiqlal məfkurəsinin reallaşması sübut etdi ki, dünya mil-

lətlərinin müxtəlif mədəniyyətləri arasında Azərbaycan xalqının da özünəməxsus, köklü və zəngin milli mədəniyyəti böyük önəm daşıyır [5].

M.Ə.Rəsulzadə cəhalətlə mübarizənin yeganə yolunu maarifçilikdə görürdü. Lakin Rəsulzadəni digərlərindən fərqləndirən başlıca cəhət onun bu sahədəki həm nəzəri, həm də praktiki əməlləridir. O da digər həmkarları kimi, mədəniyyətin xurafat və cahillikdən qurtuluşunu təhsilin yeni üsulla təşkili, bu işə xeyriyyə cəmiyyətlərinin cəlb edilməsi, mətbuat yayımı və bütün bunlarla milliliyin ilkin rəmzi olan türk dilinin tətbiqinə başlıca önəm verirdi. Rəsulzadə mədəniyyətin tərəqqisində maarifçilik istiqamətinin aparıcı formalarından biri kimi mədəni-maarifi yüksək qiymətləndirirdi. İncəsənətin ayrı-ayrı sahələrini, elm və təhsili özündə birləşdirən mədəni-maarif işinin üstünlüyünü, həm də onun kollektiv bir forma olması ilə izah edən M.Ə.Rəsulzadə kütlə halında cəhalətə qarşı mübarizənin əhəmiyyətini qeyd edərək yazırdı: "…Bu surətdə biz görürük ki, tərəqqi, zəhmət bölgüsü, insanların bir yerdə köməklə işlədikləri və mədəniyyət bir-birinə yoldaşdırlar… Bu köməkləşmə olmasa idi, insanların tərəqqi və mədəniyyətləri olmazdı. Mədəniyyət ancaq orada ola bilər ki, orada zəhmət bölgüsü olsun". Bu fikir Rəsulzadənin "Milli mədəniyyət" haqqındakı düşüncələrinin çıxış nöqtəsi idi. Dövrünün mütərəqqi düşüncəli nümayəndələri ilə çiyin-çiyinə yaratdıqları mədəni-maarif ocaqlarının fəaliyyət məqsədində aparıcı qaye milli mədəniyyəti təbliğ etmək idi. 1906-cı ildə Bakıda yaradılan "Nicat" mədəni-maarif cəmiyyətinə sədrlik edən M.Ə.Rəsulzadə teatr, ədəbiyyat, təhsili bir araya gətirməklə cəmiyyətin nizamnaməsində qeyd edildiyi kimi, "Müsəlman tayfasının qaranlığa uymuş, avam olmasını müxtəlif yolla və tədbirlərlə yatdığı o zülmə giriftar olduğu fəlakətdən qurtarmasına mənəvi kömək" edirdi [1, s.190].

Tədqiqatçı, kulturoloq alim Mübariz Süleymanlı "Kulturoloji irsin tədqiqi problemləri" adlı əsərində Rəsulzadənin istiqlal mübarizəsini, onun milli mədəniyyətə, mədəniyyət birliyinə münasibətini belə qeyd edir: "Milli istiqlal tərəfdarlarına görə, milləti meydana gətirən ünsürlər içərisində mədəniyyət birliyi və bütünlüyü ən önəmli yer tutur. Çünki bir millətin milli mədəniyyəti, onun milli tarixindən qopub gələn ulularin mirası və maddi varlığının, dil və sənət zənginliyinin, adət-ənənələrinin yaratdığı ortaq bir dəyərlər toplusudur. M.Ə.Rəsulzadə Azərbaycan xalqının istiqlal mübarizəsini nəzərdə tutaraq "Azərbaycan kültür gələnəkləri" əsərində böyük bir nikbinlik və uzaqgörənliklə bəyan edirdi ki, "Demək mücadilə davam edir və tariximizdən qüvvət alan kültür gələnəkləri, bütün zorluqlar və güclüklərə rağmən, hələ canlılıq göstərir. Müzəffər olacaqları şübhəsizdir. Çünki getdikləri yol tabiidir, çünki bu, mədəni dünyanın yürütdüğü kültür və tərəqqi yoludur. Sonucda zafər onun, üçrəngli istiqlal bayrağının, Milli Azərbaycan Türk Demokratik Kültürünündür!..." [4, s.36].

Məhəmməd Əmin Rəsulzadə Azərbaycan xalqının ədəbi və milli intibahından danışarkən ədəbiyyatımızın keçdiyi yolu, yazılı ədəbiyyat dövrünün dil və forma, sənətkarlıq xüsusiyyətlərini geniş təhlil edir. Cəlil Məmmədquluzadənin "Ölülər" əsərini yüksək qiymətləndirən Rəsulzadə bu əsərin yazılmasını və səhnəyə qoyulmasını "teatr və ədəbiyyatımızda bir böyük hadisə baş verdi" sevinci ilə yaşamış, Mirzə Fətəlinin əsərlərindən sonra həmişə diri qalacaq bir dram kimi əsəri təqdir etmişdir. Rəsulzadə əsərlərində ədəbiyyatın tərbiyəvi əhəmiyyətini qeyd edir, bu qədim sənət növünün insanlarda ali hisslər, yüksək ideallar və mənəvi-əxlaqi dəyərlər formalaşdırma gücünə inandığını bildirirdi.

"Əsli və Kərəm", "Gülünc gecələr", "Şah Abbas və Xurşidbanu", "Siyavuş", "Qaçaq Kərəm", "Rüstəm və Söhrab", "Drama tapıldı", "Arşın mal alan", "Ölülər" və s. məqalələrində isə teatr tamaşaları, səhnələşdirilmiş ədəbi-bədii mətnlərin canlı şəkildə ifadə olunması məsələləri tənqidi baxımdan izahını tapır. Rəsulzadə bu yazılarında daha çox teatr tənqidçisi kimi çıxış edir [2].

M.Ə.Rəsulzadənin ictimai-siyasi fəaliyyətini araşdırarkən, onun həm də bir ədəbiyyat, sənət vurğunu olduğu əsərlərindən oxuculara bəllidir. Həyatının ən ağır günlərində belə düşdüyü vəziyyətin, eləcə də mənsub olduğu xalqın və ölkənin durumunu ədəbiyyat vasitəsilə xalqa çatdırırdı. "Əsrimizin Siyavuşu" əsəri belə bir situasiyanın məhsulu idi. Rəsulzadə Milli Qurtuluş hərəkatının ədəbiyyatda, xüsusən də, poeziyada inikasını bir ədəbiyyat adamı, ədəbiyyatşünas kimi izləyirdi. Əhməd Cavadın 28 may

İstiqlal günü münasibətilə yazdığı "Nədən yarandım?" şeirini yüksək qiymətləndirirdi. Məhəmmədhüseyn Şəhriyarın 1954-cü ildə Azərbaycan dilində yazdığı "Heydərbabaya salam" əsəri də Rəsulzadənin diqqətini çəkmiş və o, bununla bağlı "Ədəbi bir hadisə" məqaləsini yazmışdır. M.Ə.Rəsulzadənin ədəbiyyat tarixçisi, ədəbiyyatşünas kimi ən böyük xidməti isə Nizami Gəncəvi ilə bağlıdır. 1951-ci ildə Ankarada "Azərbaycan şairi Nizami" adlı monoqrafiyasını çap etdirməklə dünya nizamişünaslığına dəyərli töhfə vermişdir. 1952-ci ildən Ankarada nəşr olunan "Azərbaycan" jurnalında Azərbaycan tarixi və ədəbiyyatı haqqında silsilə məqalələr də çap etdirmişdir [3].

M.Ə.Rəsulzadə mühacirətdə fəaliyyət göstərdiyi dövrdə Azərbaycanın istiqlalı və müstəqilliyi problemi istiqamətində mübarizə aparmış, zəngin tarixi-siyasi, ideoloji bir irs yaratmışdır. O, daima Azərbaycanın müstəqilliyi uğrundakı mübarizəni ideoloji siyasi cəhətdən kamilləşdirmişdir. M.Ə.Rəsulzadənin milli mücadilə tariximizdə ən böyük xidmətlərindən biri azərbaycanlı mühacirləri birləşdirib toplamağı oldu. Paris, Tehran, Almaniya, İtaliya, Fransa, Xorasan, Mazandaran, Qars, Ərzurum kimi şəhərlərdə nümayəndələrimizin, əski mühacirlərimizin olmasına baxmayaraq, İstanbulda bu işi M.Ə.Rəsulzadə öz üzərinə götürmüşdü. O, ilkin olaraq Müsavatın Xarici Ölkələr Bürosunu yaratdı. M.Ə.Rəsulzadənin Türkiyədəki fəaliyyətini iki dövrə bölmək olar. Birinci dövr 1922-1931-ci illəri əhatə edir; ikinci dövr isə 1948-ci ildən başlayır. Hər iki dövrdə o, böyük çətinliklərlə qarşılaşmışdır. Mühacirət həyatının ağır şərtləri daxilində mübarizə aparmaq, maddi imkansızlıq, yurdsuzluq kimi çətinliklər içərisində yaşamaq və nəhayət, kənar ölkə daxilində (Türkiyə olsun, yaxud Avropa ölkələri) siyasi mücadiləyə uyğunlaşmaq çox çətin idi [7, s.48].

Professor Vaqif Sultanlı "Azərbaycan mühacirət ədəbiyyatı" kitabında Azərbaycan mühacirət ədəbiyyatının ikinci mərhələsinin 1920-ci ilin aprelindən, yəni Cümhuriyyətin süqutundan sonra başlandığını qeyd etmişdir: "Əvvəlki mərhələdən fərqli olaraq, bu mərhələnin təmsilçiləri vahid təşkilatda – 1924-cü ildə Məhəmməd Əmin bəyin İstanbulda əsasını qoyduğu Azərbaycan Milli Mərkəzində birləşmişlər. Mərkəzin yaradıcıları Azərbaycan davasını yalnız siyasi çərçivədə deyil, həmçinin mədəni-kulturoloji aspektdə dərk etdikləri üçün milli-mənəvi xəzinəmizin təbliğinə mühüm yer ayırırdılar" [6, s.12].

## Nəticə / *Conclusion*

Bu il görkəmli dövlət və ictimai-siyasi xadim, publisist, Azərbaycan Xalq Cümhuriyyətinin banisi, milli istiqlal hərəkatının lideri Məhəmməd Əmin Rəsulzadənin doğumundan 140 il ötür. Cümhuriyyətin qurucusu yüksək istedadlı insan olmaqla yanaşı, vətənini və millətini sevən, onun mənafeyini hər istəkdən üstün tutan şəxsiyyət idi. O, bu dünyadan ayrılsa da, tarixin səhifələrində, insanların qəlbində daima yaşayacaqdır.

## Ədəbiyyat / *References*


1. Əliyeva, Sədaqət. XIX əsrin sonu, XX əsrin əvvəllərində İslam islahatları və M.Ə.Rəsulzadənin kulturoloji arqumentləri. "Musiqi dünyası" jurnalı, 1-2/23. 2005-ci il.
2. Musayeva, İradə. Məhəmməd Əmin Rəsulzadə və Azərbaycan ədəbiyyatı (II yazı) "525-ci qəzet", 7 mart 2024-cü il.
3. Musayeva, İradə. Məhəmməd Əmin Rəsulzadə və Azərbaycan ədəbiyyatı (III yazı) "525-ci qəzet", 14 mart 2024-cü il. https://525.az
4. Süleymanlı, Mübariz. Kulturoloji irsin tədqiqi problemləri (XX əsrin əvvəllərinin mənbələri əsasında). – Bakı, 2011.
5. Süleymanlı, Mübariz. M.Ə.Rəsulzadənin mədəniyyət, millət və dövlət anlayışlarına kulturoloji baxışı. Füyuzat–125. 2022. https://fuyuzat.az
6. Sultanlı, Vaqif. Azərbaycan mühacirət ədəbiyyatı (dərs vəsaiti). – Bakı,1998.
7. Yaqublu, Nəsiman. Azərbaycan milli istiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. – Bakı, 2001.

## Пропаганда национальной культуры в наследии Мухаммеда Амина Расулзаде

**Фаргана Гусейнова**
Доктор философии по культурологии, доцент
Институт архитектуры и искусства НАНА
E-mail: farqana.huseynova68@gmail.com

**Резюме.** Национальная культура нации – это совокупность общих ценностей, порожденных наследием великих людей, богатством языка и искусства, традициями, происходящими из ее национальной истории. Мы должны стремиться не только сохранять и изучать, но и пропагандировать нашу культуру в рамках культурных ценностей человечества, которые веками определяли наше существование, нашу национальную идентичность. М.А.Расулзаде был одной из тех личностей, которые достойно переняли и пропагандировали прошлое нашей культуры, нашу культурную сокровищницу. Он посвятил всю свою жизнь, семью, здоровье за независимость Азербайджана. Расулзаде был ценной личностью не только для азербайджанцев, но и для всего тюркского мира.

В статье освещены борьба Расулзаде за национальную независимость, связавшего национальное единство с культурой, и его заслуги в просвещении народа. Приводятся цитаты из произведений Расулзаде, которые показывают, что путь к спасению народа лежит только в науке и прогрессе. В статье также говорится о теоретической и практической деятельности Расулзаде в борьбе за независимость, а также о его деятельности как литературного критика. Рассказывается о борьбе Расулзаде за независимость Азербайджана во время его ссылки.

**Ключевые слова:** Мухаммед Амин Расулзаде, национальная борьба за независимость, национальная культура, азербайджанский народ, культурно-просветительская деятельность